# Ağdamda "Heydər Əliyev İli" ilə bağlı tədbir keçirilib



**Ağdamda "Heydər Əliyevin Azərbaycan elminin və mədəniyyətinin inkişafında rolu" mövzusunda tədbir keçirilib.**

Rayon icra hakimiyyətinin və YAP rayon təşkilatının birgə təşkilatçılığı ilə keçirilən tədbirdə RİH-in başçısı Vaqif Həsənov, YAP rayon təşkilatının sədri Mansur Quliyev, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, rayon ziyalıları, ictimaiyyətin və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak etmişlər.

Tədbir iştirakçıları əvvəlcə Ulu Öndərin mərkəzi meydanda ucaldımış abidəsini ziyarət etmişlər. Heydər Əliyev Mərkəzində davam edən tədbirdə çıxış edənlər müasir Azərbaycanın memarı və qurucusu, ölkəmizin inkişafı naminə böyük və əvəzedilməz işlər görmüş Ümummilli Lider Heydər Əliyevin əvəzedilməz xidmətlərindən danışmışlar.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

Azərbaycan.- 2023.- 13 yanvar.- S.9.